# Web sayt üzərindən sığorta ödənişi qaydaları

**Ödəniş Qaydaları**

Bu bölmə **www.pasha-insurance.az** saytının ödənişlə bağlı qaydalarını müəyyənləşdirir. Ödəniş səhifəsinə daxil olmaqla, siz Şərtlər və Qaydaları tam olaraq qəbul etmiş olursunuz.

**Ödəmə Qaydası**

"Sığorta Haqqının" ödənişini yalnız bank kartları vasitəsi ilə həyata keçirə bilərsiniz. Ödəniş etmək üçün əlaqəli sığorta növü ilə bağlı sizdən tələb olunan məlumatları daxil etdikdən sonra ekranda çıxan məlumatlar sizə aiddirsə "Ödəniş Et" xanasını kliklədikdən sonra ödəmə səhifəsinə keçid alırsınız. Ödəniş bölməsində sizdən qeyd olunan kart məlumatlarını daxil etməyiniz tələb olunur. Tələb olunan kart məlumatları doldurulduqdan sonra debit / kredit kartınızdan ödəniş alınacaqdır. Ödənişlə bağlı hər hansı çətinlik yaşadığınız təqdirdə kart sahibinin bankla əlaqə saxlamağı xahiş və tövsiyyə olunur. Website ilə bağlı çətinlik yaşadığınız təqdirdə isə *7000 nömrəsinə zəng etməyiniz xahiş olunur.

**Qəbul Olunan Ödəniş Metodları**

Debit / Credit Card (Visa, MasterCard).

**Ödənişin Ləğvi / Qaytarılması**

Ödənişin həyata keçirildiyi kartdan seçilmiş müvafiq sığorta növü üzrə "Sığorta Haqqı" məbləğində ödəniş tutulduqdan sonra ödəniş geri qaytarılmır. Ödənilmiş sığorta haqqı yalnız əldə etdiyiniz sığorta məhsulundan imtina etdiyiniz (yəni, sığorta haqqını ödəyərək bağladığınız sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdiyiniz hal) təqdirdə geri qaytarılır. Bununla bağlı sizə ən yaxın PAŞA Sığorta baş ofisi və ya sizə ən yaxın nümayəndəliyə yaxınlaşaraq imtina barədə ərizə yazdıqdan sonra Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqları sizə qaytarılır.

**Məxfilik və Təhlükəsizlik**

Müştəriyə aid bütün məlumatların məxfiliyi tam şəkildə qorunur və heç bir halda üçüncü tərəfə ötürülməməkdədir. Ödəniş etdiyiniz kredit və ya debit kart məlumatları heç bir halda qeydiyyatda saxlanılmır və dərhal silinir.